Tarix və onun problemləri, №1-2 2009

**ŞAHİN FƏRZƏLİYEV**
*tarix elmləri doktoru, professor*
**ELMİRA MURADƏLİYEVA**
*tarix elmləri doktoru, professor*

# TARİXİ - DANIŞMAYAN NATİQİ DANIŞDIRAN KİTAB

«Təbiətimiz hər şeydən artıq tarixə maildir... Bu elm [tarix] insanı gözəl əxlaqlı və bilikli edir... Buna görə, onu mənəvi elmlərin qiymətlilərindən hesab edib demək olar: Tarix hökmsüz və zülmsüz elə bir hökmrandır ki, bütün Adəm övladı onun əmrlərinə boyun əyməkdədir... tarix elə bir d a n ı ş m a y a n n a t i q d i r ki, sələflərin vəsiyyətlərini... xələflərə bildirir, ehtiyac və rifah səbəblərini, tərəqqi və tənəzzül yollarını anladır... Tarix elmi dünyanın təcrübəsini bizə kəşf edir. Bundan daha yaxşı nə ola bilər? Xüsusən, hər bir ölkənin tarixi orada yaşayan xalq üçün faydalıdır, çünki tarix ona öz millətinin təbiət və adətlərindəki xüsusiyyətləri bildirər, qonşu tayfaların rəftarından məlumat verər, müxtəlif xalqlarla saxlanan əlaqənin əsas xeyir və zərərini ona məlum edər».

Hörmətli oxucu! Biz məqaləmizə bu sözlərlə başladıq. Yox, bu sözlər bizim deyildir. Bunları Azərbaycan xalıqının ən savadlı və ləyaqətli övladlarından biri-«Qüdsi təxəllüsü ilə məşhur bakılı Abbasqulu Mirzə Məhəmməd xan Saninin oğlu» gələcək tarixçilərə yol göstərmək məqsədilə söyləmişdir. (1)

Tarixin nə demək olduğunu bir neçə cümlə ilə oxucu nəzərinə çatdıran bu böyük tarixçi necə də haqlıdır. Diqqət yetirdinizmi? Tarix-danışmayan natiqdir. Bu natiqi danışdırmaq lazımdır. Burada söhbət «Tarix» adlı Azərbaycan natiqindən gedir. Əlbəttə, bu natiqi Abbasqulu ağadan əvvəl də, sonra da danışdırdılar. Bu danışmayan natiqi ən qədim dövrlərdən başlayaraq bu günə qədər çox danışdırdılar. Çox gözəl! Qoy danışdırsınlar bu natiqi. Danışmayan natiq nə qədər çox danışdırılarsa, xalqa o qədər də çox fayda verər. Xoşbəxtlikdən, danışmayan natiqi danışdıran tarixçilər özlərinin bu fəaliyyətləri nəticəsində cildlərlə tarix kitabları yazdılar ki, onların biri də, azərbaycanca keçən əsrin sonlarında (Bakı, 1996) işıq üzü görən və tarix elmləri doktoru, professor, əməkdar elm xadimi Süleyman Əliyarlının redaktoru olduğu «Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər» adlanan kitabdır. Bir neçə il ötdü və 10 min nüsxə tirajla çap olunmuş həmin kitabın yeni nəşrinə ehtiyac yarandı. Bu dəfə rus dilində və cüzi dəyişikliklərlə. Axı, rus dili indinin özündə də Azərbaycan tarixinin daha geniş məkanda öyrənilməsindən ötrü ən yaxşı vasitədir. Axı, Azərbaycanda və xarici ölkələrdə minlərlə, bəlkə də yüz minlərlə oxucu var, ölkəmizin tarixini öyrənmək arzusunda olan oxucu. Məhz «Azərbaycan tarixi»nin rus dilindəki bu nəşri alimlərimizin olduqca xeyirxah və gərəkli işidir desək, yanılmarıq.

Bunu qeyd etməyi özümüzə borc bilirik ki, barəsində söhbət açacağımız «Azərbaycan tarixi» kitabı Bakı Dövlət Universitetinin məşhur alimləri tərəfindən yazılmışdır. Müəlliflər heyətinə nəzər salaq: T.e.d., prof. Süleyman Əliyarlı, AMEA-nın müxbir üzvü Yaqub Mahmudov, AMEA-nın müxbir üzvü İlyas Babayev, prof. Şövkət Tağızadə, t.e.d., prof. Seyidağa Onullahi, t.e.d. Kərim Şükürlü, f.e.d. Vilayət Muxtaroğlu, dos. Fərman Mahmudov, dos. Zabil Bayramov, dos. Mehman Abdullayev. Təəssüflər olsun ki, S.Onullahi və F.Mahmudov dünyalarını dəyişmişlər.

*20 bölümdən,* hər bölüm bir neçə *yarımbölümdən* və hər yarımbölüm müvafiq *yarımbaşlıqlardan* ibarət bu dəyərli tarix kitabına «Ön söz» yazan redaktor indiyədək tədqiqata az təqdim olunan kitablardan bəzilərini /Məhəmməd Ağdaşinin «Dərbəndna-

mə», Həsən Əfəndi əl-Qədarinin «Asari-Dağıstan», Oruc bəy Bayatın «Tarix», Fəzlullah ibn Ruzbehan Xunəcinin «Tarixi-aləmarayi-Əmini», bir neçə müəllif tərəfindən yazılmış «Qarabağnamələr», yüzlərlə arxiv sənədləri/ xatırladaraq, istifadə olunmuş bütün qaynaqlar haqqında bu kitabda xüsusi bölümün lüzumsuzluğunu bildirir (2) ki, həqiqətən də buna ehtiyac yox idi, çünki 1989-cu ildə Sülemyan Əliyarlının «Azərbaycan tarixi üzrə qaynaqlar» adlı kitabının çap olunması bu yeni «Azərbaycan tarixi» kitabında həmin qaynaqlar barədə təzədən məlumat verilməsini lüzumsuz etmişdir. Biz bu professoru yaxşı tanıyırıq. Təkrarçılığı sevmir, hadisələrin izahında gərəksiz təfərrüata varmır, kokretliyi üstün tutur. Belə də lazımdır!

*I bölüm* «İcma yaşayışı» adlanır. Ulu od! Odyandırma vərdişi! Orta paleolit dövrü! Bunlardır ölkəmizdəki icma quruluşunun insan yaşayışını xarakterizə edən *yarımbaşlıqlar*. Fərman Mahmudov birinci yarımbaşlıqda qeyd edir ki, ulu icma dövrü 1,5 milyon ildən 40 min il bundan öncəyə qədər davam etmişdir ki, bu da ibtidai icma quruluşunun ən uzun davam etmiş dövrü sayılır. O dövrdə müxtəlif əmək alətləri hazırlanmış, insanlar yırtıcı heyvanlar içərisində yaşayaraq, birgə əməklə məşğul olmuşlar. Azıx mağarasının V qatından tapılan insan qalığı. Təxminən 4 yüz min il bundan əvvəl yaşamış insanın dövrümüzədək gəlib çatmış alt çənə sümüyü. Bu çənə Qafqaz və qonşu regionlarda insanın ən qədim qalığıdır. Tapıldığı yerin adına uyğun olaraq ona Azıxantrop /Azıx adamı/ adını vermişlər. Bu tapıntı Azərbaycanın yer üzündə insanın yarandığı ocaqlardan biri olmasının göstəricisidir. (3)

Ulu od! Odyandırma vərdişi! İlk insanların yaşayışında odun misilsiz rolu. Əmək alətlərinin yaxşılaşması. Ovçuluq təsərrüfatının inkişafı. Elə insanın özü də inkişaf etmiş, onun beyni böyümüş, əl-qolu bərkiyib çevikləşmiş, düşüncəsi genişlənmiş, danışığı açılmışdır.

Sonra, göstərilən bölümün daha *üç yarımbaşlığı*: qəbilələr və qəbilə icmaları. Anaxaqanlıq dövrü. Nikah. Özü də qrup halda. Belə nikahda atanın kim olması bəlli deyildi. Uşaqlar ananın qəbiləsində böyüyürdülər. Buna görə də qəbilədə ana üstün yer tutur, nəsil ana xətti ilə seçilirdi. Tarixdə bu hal anaxaqanlıq, patriarxat çağıdır. «Dədəm Qorqud» kitabındakı «qadın ana», «ana haqqı, tanrı haqqı» kimi deyimlər məhz anaxanlıqdan qalmadır. «Ana dili», «Ana vətən» anlayışları da həmin çağdan yadigardır.

Mezolitdən Neolitə qədər davam edən anaxaqanlığın süqutu. 40 min ildən VII-VI minilliklərə qədər uzanan bir dövr. Qobustan rəsmləri. Azərbaycanın bir neçə min illiyi əhatə edən tarixinin qayalar üstündə əbədiləşməsi.

İstehsal təsərrüfatı. Qəbilə icmasının çiçəklənməsi. «Neolit inqilabı». Eneolit dövrü... Oturaq əkinçilik və onunla bağlı ev maldarlığı. Suvarma əkinçiliyi. Ət istehsalı. Ev peşələri. Daşişləmə və sümükişləmə. Saxsı qab istehsalı. Metal ilə tanışlıq. Ataxaqanlıq dövrünün başlanması. Əlvida anaxaqanlıq!

Sonra, ibtidai insan cəmiyyətinin dağılması. Tunc dövrünün başlanğıcı. Miladdan əvvəl IV minilliyin sonundan başlayan və iki min il davam edən bir dövr. Qəbilə icmasının dağılması və erkən sinifli cəmiyyətə keçid məhz bu zaman oldu.

Tayfa birliyi. Kuti /quti/ tayfa birliyinin Mesopotamiyanı tutması və buradakı quldar dövlət üzərində yüz ilə yaxın bir vaxt ərzində hökmranlıq etməsi. Lullube tayfa birliyi.

Son tunc-Erkən dəmir dövrü /miladdan əvvəl XIV-XII yüzillər/. Tuncdan dəmirə keçid. Metallurgiya və metalişləmə sənəti. Arxeoloqların tapdıqları Mingəçevir metaləritmə kürələri, misgər dəfinələri. Dəmir istehsalı /II minilliyin sonu/. Dulusçuluq və s. (4)

Barəsində yazdığımız «Azərbaycan tarixi»nin birinci bölümünün sonu. *II bölümdə* isə uzaq keçmişdə Azərbaycanda etno-siyasi toplum və birliklərdən bəhs olunur.

Zaqros dağı ətəkləri. Kutilər. 91 il davam edən sülalə hakimiyyəti. Şumerlər. Kuti-şumer dinc münasibətləri.

Lullu tayfaları. Kutilərin qonşuları. Lullular Urmiya gölünə doğru olan torpaqlarda yaşayırdılar. Onlar m.ə. III minilliyin sonlarfında Şumer və Akkadın nüfuz dairəsində olmuşlar.

Su tayfaları. Bu tayfaların adı bəlkə də türk sözü olan «Su»dan götürülmüşdür. Onlar Urmiya gölü bölgəsində yaşayırdılar və bu yerlər su ilə zəngindir. Onların yaşadıqları yer, güman ki, təsadüfən «Su adamlarının ölkəsi» adlandırılmayıb.

Bu tayfalar elamlılarla birlikdə Şumer-Akkad çarlığını m.ə. 2003-cü ildə darmadağın etmişlər. Mənbələrə görə, su tayfaları Zaqros dağları ətəklərində yaşayan tayfaların, o sıradan lulluların ümumi adı olmuşdur.

Turukkilər. Güney Azərbaycanın ən qədim sakinlərindən olmuşlar. Assur yazılarında adları var. Nə yaxşı ki, bu yazılar məhv olmayıb. Turukkilər kutilərin və lulluların qonşuları olmuşlar /III minilliyin I yarısı/. Kuti, lullu, su və turukki tayfaları Qədim Şərqin tarix səhnəsində, xalqın yaranışında görkəmli rol oynadılar. Azərbaycan torpaqlarında m.ə. I minilliyin başlanğıcında ilkin dövləti yaradan mannalılar, adları çəkilən bu tayfaların, həmçinin turukkilərin varisləri və törəmələri olmuşlar.

Hurrilər. Onlar da Urmiya gölü ətrafındakı ərazilərdə məskunlaşmış və Quzey Mesopotamiyadan Urmiya gölünədək yayılmışdılar. Hurri dili Ururtu dili ilə qohum idi. Dil qohumluğu soy etibarilə el qohumluğundan xəbər verirmi?

M.ə. VIII yüzildə yeni toplumlar-sakalar, massagetlər fəallaşdılar. Onlar Quzey Qafqazın günbatarında, həmçinin Krım və Kerçdə yaşayırdılar. Kimmerlər Azərbaycanın günbatanında, iskitlər Transqafqazda, Midiya torpaqlarında, sakalar Sakasenada /Azərbaycanın qərbi/ massagetlər isə Gilgilçayla Dərbənd arasında uzun müddət yaşamışlar.

Kaspilər. Onlar antik dövrdə «alban» adı daşıyan müxtəlif tayfaların ulu babaları olmuşlar. Kaspilər kassilərlə etnik baxımdan qohum idilər. (5)

«Azərbaycan tarixi» kitabının *III bölümü* isə bütünlüklə Manna dövləti tarixinə həsr olunmuşdur. «Manna dövləti» adlanan bu bölümün *yarımbölüm* və *yarımbaşlıqlarına* diqqət yetirin: 1. Tarixi axarın başlanğıcı /İlkin anlayış. Kiçik dövlət qurumları/; 2.Manna dövlətinin yaranması /Assur və Urartu çarları ilə ilk qarşılaşma. Mannaya urartuların yeni basqınları/; 3. Mannanın güclənməsi. Assuriya ilə yaxınlaşma. Mannada çəkişmələr. Manna dövlətinin genişlənməsi. Manna dövlətinin çökməsi/; 4.Dövlət quruluşu, təsərrüfat, mədəniyyət /Dövlət quruluşu. Mannada əkinçilik. Maldarlıq və atçılıq. Sənət. Mənəvi mədəniyyət. Midiya və Əhəməni imperatorluqları tərkibində/.

Dos. Fərman Mahmudov, əlbəttə, bütün bunları faktik materiallarla və yığcam şəkildə əhatə etmiş, Manna dövlətinin siyasi, ictimai-iqtisadi və mədəni həyatını oxunaqlı tərzdə işıqlandırmışdır. O, bildirirdi ki, I minilliyin başlanğıcında Güney Azərbaycanda yaşayanların çoxu «mannalılar» adlanır və onlar əsasən Urmu gölünün gündoğarında yaşayırdılar. Mannalılar kuti, lullu, turukki, su və başqa soyların varisləri sayılırdılar. Manna dövləti bu tayfaların, ayrı-ayrı vilayətlərin və şəhər-dövlətlərin birləşmələri özülündə yarandı. Yarandı, amma Mannanın siyasi tarixi siyasi rəqabətlərlə zəngin oldu, bu dövlət m.ə. IX yüzilin sonunda Urartu kimi «yırtıcı bir dövlətin» hücumuna məruz qaldı. Ön Asiyada hegemonluq Assuriyanın siyasi böhran keçirməsi ilə bağlı Urartuya keçdi.

Urartu. Mannanın təhlükəli düşməni. Pislik elə Urartunun özünə qaldı. Manna yüksəlişə başladı. Urartu-Assuriya qarşıdurması urartuların bəzi Manna vilayətlərinə göz dikmələrinə son qoydu. Yaxşı deyiblər: «Biri ölməsə biri dirilməz». Manna dövlətinin çiçəklənmə çağı başlandı. A-x bu çəkişmələr! Hakimiyyət hərisliyi! Ata-oğul, qar-

daş-qardaş münasibətləri!.. Lakin Manna dövləti genişlənməkdəydi /quzeyə doğru/, onun hərbi-siyasi qüdrəti artmaqdaydı. Lakin yenə yeni savaşlar. Yenə Urartu-Manna döyüşləri, Urartu-Assuriya cəngləri...Sonra Midiya...

M.ə. 590-cı ildə Manna öz üzərində Midiya hakimiyyətini tanımalı oldu, torpaqları Midiya ordusu tərəfindən bütünlüklə işğal edildi, 250 il yaşamış bu dövlət çökdü.(6)

Beləliklə də, Fərman Mahmudovun bu tarix kitabına yazdığı bölümlər bitdi. Bölümlər bitdi və vaxtsız ölüm gəldi, bu istedadlı tarixçini həyatdan apardı. Fərman həyatdan getdisə də, yazdığı bölümlər həyatda qaldı. Ölümün acığına. Ölüm gəldi-apardı, Fərman isə gəldi, yazdı və öz tarixi əsərlərini təbii ki, özü ilə aparmadı, oxucuları üçün yadigar qoydu... və yaşamaqda davam etdi.

İndisə İlyas Babayevin bölümləri gəlir. *Dördüncü* və *beşinci* bölümlər. Bizim diqqətimizi mötərizə içərisində yazılmış bu sözlər cəlb etdi: «Bu bölümlərə dos. Fərman Mahmudov bir sıra köklü əlavə və düzəlişlər etmişdir». Bax, belə etiraf etmək lazımdır. Kiminsə zəhmətini mənimsəmək kişilikdən və alimlikdən deyil! Dostumuz İlyas Babayev isə kişi alimdir!

Beləliklə, *dördüncü bölüm*: *Atropaten və Alban dövlətləri*. Bu, bölümün adıdır. *Yarımbölümlər* və *yarımbaşlıqlar* isə belədir: 1. Atropaten dövləti /Atropaten dövlətinin yaranması. Ərazisi və təsərrüfatı. Əhalisi/; 2. Siyasi tarix /Atropaten dövləti ellinizm dövründə. Parfiya, Roma və Ermənistanla münasibətlər. Mədəniyyət/; 3. Alban dövləti /Alban dövlətinin yaranması. Ərazi. Əhali. Təsərrüfat. Sənət işləri. Ticarət. İctimai quruluş. Şəhərlər/; 4. Siyasi tarix /Roma işğallarına qarşı mübarizə. Alban basqınları, Mədəniyyət/.

İ.Babayev yazır: «Qədim çağda Quzey Azərbaycan torpaqlarında albanlar və onlara qohum tayfalar yaşayırdı... Makedoniyalı İsgəndərin Şərqə yürüşü nəticəsində Əhəmənilər imperiyası süqut etdi. Alban torpaqlarında müstəqil dövlət yarandı». Bu hadisə e.ə. IV əsrin sonuncu rübündə və III əsrin əvvəllərində baş verdi. (7) Bəli, qonşuluqdakı bir dövlətin süqutu başqa dövlətin yaranmasının əsas şərtidir. Bu, qədim dövr tarixində qanunauyğunluqdur.

Alban dövlətinin şərq sərhədi, Strabona görə, Kaspi dənizi olub. Qərb sərhəd isə Alazan /İori/ çayı boyunca uzanmaqdaydı. Şimal və cənub hüdudları tarixşünaslıqda mübahisə doğurmaqdadır. Yenə Strabona görə, «Alban ölkəsinin...şimal tərəfi Qafqaz dağları ilə əhatələnib». Klavdi Ptolomey isə Alban torpaqlarının quzeydə Soana /Samur/ çayına ktimi uzandığını bildirir. Bundan istifadə edən Dağıstan tarixçilərinin əllərinə girəvə düşür və onlar bütün Dağıstanı Alban dövlətinin tərkibinə daxil etməklə oranı özlərinin qədim dövləti kimi qələmə verməyə başlayırlar...

Albaniyanın əhalisinə gəldikdəsə, onların 26 dildə danışan tayfalardan ibarət olduqları yazılır (Strabon). Tədqiqatçıların fikrincə, bu 26 dilin hamısı müstəqil dil deyildi, çoxu bir neçə dilin ayrı-ayrı ləhcələri idi. Hər halda, Qafqazın başqa bölgələrində olduğu kimi alban əhalisi də vahid dildə danışmırdı. Yenə Strabon yazır: «Onlar bir-biri ilə çətinliklə ünsiyyətə girirlər».

Alban tayfalarının hamısının adı elmə bəlli deyil. Bu tayfaların ən böyüyü «alban» adı daşıyırdı. Bir sıra alban tayfaları Kür çayından sol tərəfdəki ərazidə yaşayırdılar. Gellər, həmçinin leqlər Samur və Qudyal çayları arasında yerləşmişdilər. Massagetlər Çola vilayəti və Abşeron tərəfdə, herlər və lupenlər Kambisena vilayətində yaşamışlar.

Yeni elmi araşdırmalarda «alban» etnik adı qədim türk «alp» / «cəsur, igid»/ sözü ilə bağlanır. «Kitabi-Dədəm Qorqud»da bu etnos «alpanlar» şəklində yazılıb. «Alp» köklü toponimlər Quzey Azərbaycanda /Alpan, Alpout/, həmçinin Cənubi Dağıstan və Şərqi Gürcüstanda /Alpanlar, Alpani/ da vardır. Belə dəlillər əsasında belə qənaətə gəlmək olur ki, «alban» etnik adı daşıyanlar türkdili sayılırlılar.

Albaniyanın təsərrüfatı taxılçılıq, tərəvəzçilik, bağçılıq, üzümçülük maldarlıqla bağlı idi.

Alban torpaqlarında çoxlu sənətkarlıq sahələri inkişaf etmişdi. Elə sənət sahələrinin bəziləri ilə kənd yerlərində də məşğul olurdular.

Ərazisindən tranzit su yolu keçirdi. Qaynaqlarda yazılır ki, Oks çayı /Amu-Dərya/, Hirkan dənizi /Xəzər/ və Kür çayı ilə, bir qədər də quru yolla Hindistan məhsullarını Qara dənizə çıxarmaq olar.

Yenə Strabona müraciət edək: «Hazırda /m.ə. 60-cı illərin başlanğıcında /Ş.F. və E.M./ alban qəbilələrinə bir padşah başçılıq edir, əvvəllər isə burada hər dövlətin öz padşahı vardı».

K.Ptolomey Albaniyanın 29 şəhərinin /Teleba, Gelda, Albana, Qaytara və s./ adlarını çəkir.

Bu ölkənin siyasi tarixinə gəldikdəsə, Albaniya ərazisində çoxlu döyüşlər olmuş, buraya Roma, Parfiya və başqa yadelli qoşunların /alanlar və s./ hücumları baş vermişdir. (8)

Bütün bunları İlyas Babayev deyir və kitabın *beşinci bölümündə* -«Azərbaycan erkən olrta çağda» adlanan hissəsində Albaniyanın III-VI yüzilliklərinə baş vurur, təsərrüfat həyatı, ictimai münasibətlər, inzibati bölgü, xristianlığın yayılması, Sasani imperatorluğu və Azərbaycan, quzey bölgələrin siyasi durumu, üsyanlar /450, 451, 457/, Məzdəkilər hərəkatı /V əsrin 80-ci illəri/, III Vaçaqanın hökmdarlığı /487-510/, feodal cəmiyyətinin inkişafı, köçərilərin yürüşləri /IV-VI əsrlər/, mədəniyyət və s. haqqında ətraflı məlumat verir.(9)

Prof. İlyas Babayevdən sonra qələm prof. Süleyman Əliyarlının əlinə keçir. *Altı* və *yeddinci bölümlər*: «Azərbaycanda xilafət ağalığı və ona qarşı mübarizə /VII yüzilliyin başlanğıcı-IX yüzilliyin birinci yarısı/» və «Etnogenezis».

*Altıncı bölümə* «Siyasi baxımdan Sasani imperatorluğuna tabe edilmiş Azərbaycan, onun quzey sınırlarında çox mühüm strateji yer tuturdu» cümləsi ilə başlayan S.Əliyarlı «Ərəb yürüşləri qarşısında. Ərəb yürüşlərinin başlanması. İlkin bağlaşqma və üsyanlar. Aqvan hökmdarı Cavanşirin siyasəti. Sasanilər. Xilafət, ya Bizans? II Konstantla bağlaşma. Aqvan üzərində «Güney hökmranlığı». Cavanşirin Güney hökmdarının hüzuruna ikinci dəfə getməsi. Aqvan knyazlarının aradan götürülüb yox edilməsi. Azərbaycan ərəb-xəzər savaşlarında. Ərəb ağalığı, idarəçilik, köçürmə siyasəti, islamlaşma, vergilər-ödənclər, torpaq siyasəti, mülk, vəqf və icma torpaqları. Xilafətə qarşı xalq savaşı. Xürrəmilik. Savaşın yüksəlişi. Savaşın gedişində dönüş. Bəzzin çökməsi. Bizans köməyinin gecikməsi. Babəkin öldürülməsi. Azadlıq savaşının tarixi yeri» kimi *26 yarımbölüm* və *yarımbaşlıqlarda* oxucusunda yarımçılıqdan uzaq tam təsəvvür yaratmağa çalışır və buna bütünlüklə nail olur. S.Əliyarlının ayrı-ayrı fikirləri: «Farslar quzeydə ağır savaşlar apararkən, ərəb qəbilələrinin siyasi birləşməsi yeni dünyəvi təktanrılıq /monoteist/ dini olan islamın bayrağı altında sona yetişməkdə idi»; «Cavanşir və qoca Varaz Qriqor, güclü bir dövlətə arxalanmadan Aqvanı qorumağın mümkün olmayacağını yaxşı anlayırdılar»; «Bizansla bağlaşma kəsərsiz xarici siyasət göstəricisi deyildi. Bu bağlaşma Cavanşir siyasətinin ərəblərə qarşı yönəlməsindən irəli gəlirdi»; «Azərbaycanın güney torpaqlarında /həmçinin İran və Orta Asiyada/ islamın tez yayılması uzun sürən Sasani zülmü ilə bağlı idi»; Yenicə «İman etmiş», «dinə gəlmiş» Azərbaycan əhalisinin mənəvi durum və davranışı «Kitabi –Dədəm Qorqud» boylarında qabarıq iz buraxmışdır. Bu boylarda...Oğuzların dilində «Allah yerinə daha çox, daha tez-tez «Tanrı /»Tengri»/ sözü işlənir... bir neçə yerdə Qurandakı «Allah-təala» yerinə «Tanrıtəala» yazılması da islamdan qabaqkı görüşləri bütünlüklə rədd etmirdi və edə də bilməzdi. Bu hərəkatın başlıca qayəsi xalqın siyasi azadlıq qazanması idi»; «Xürrəmilər

hərəkatı IX yüzilliyin ikinci yarısında Azərbaycanın xilafət ağalığı boyunduruğundan çıxmasını hazırlayan bir tarixi amil oldu»... (10)

*Altıncı bölüm* bitdi, amma qələm yenə Süleyman Əliyarlının əlinə yarlıq edir. *Yeddinci bölüm.* Olduqca çətin, lakin olduqja da faydalı bir problem: Etnogenezis! Süleyman müəllimin başlayıb başa yetirdiyi başlıqlara baxmaq, mətni diqqətlə oxumaq və professorun açıqladığı soy kökümüzdən xəbərdar olmaq necə də gərəklidir: Azərbaycanlıların kimliyindən yazılanlara bir baxış. Tarixçilik imperializmi; Ön Asiya, Aralıq və Qara dəniz bölgələri uzaq keçmişdə türklərə yad deyildi; «Təbii dərinləşdirmə üsulu»; Yaranışımızın alt qatları; Uzaq keçmişdə soykökümüzün izləri; Bulqarlar; Buntürklər; Albanlar; «İskit çağı» yonma daş heykəlləri; İlkin orta çağda türk toplumunun yayılıb güclənməsi; Kəngərlər; Masaha hunları; Bersil-Barşalı-Borçalı; Suvar bolqarları; «Türküstan» sol sahil dövləti; İslamın ilkin yayılma çağı; Türk törəyiş əfsanəsi xalqın etno-tarixi yaddaşında; «Ktabi - Dədəm Qorqud»; Qurddan törəyiş əfsanəsi; Törəyiş əfsanəsi «Dədəm Qorqud» boylarında; Törəyiş əfsanəsi söz sənətinin başqa örnəklərində; Ümum-iran kültür yaradıcılığına qoşulma «nəzəriyyəsi»; Özünü dərketmə, özünü oğuzbilmə; Dil-yaranışın qaynağı kimi, «Soykök birliyi» nəzəriyyəsi və Qorqud Dədələrin dili.

Biz deyərdik ki, «Azərbaycan tarixi» kitabının ən oxunaqlı bölümü və xalqımızın etnogenezisisni öyrənmək baxımından ən faydalısı məhz bu yeddinci bölümdür. Mərhəba!

Əgər biz bu bölüm barədə bu kiçik məqalədə uzun yazsaq mətləb sap kimi uzanar. Möhtərəm oxucu! Bu bölümü yaxşı-yaxşı oxu və xalqımızın etnogenezindən yaxşıca xəbərdar ol! Biz yalnız bölümün sonunda nəticə kimi verilmiş «Soykök birliyi» /türklərin guya farslarla bir soykökdən olması və birincilərin yaranmasında iranlıların guya aparıcı rol oynaması «nəzəriyyəsi» / barədə Süleyman müəllimin gəldiyi qənaəti misal gətirmək istərdik. Professor yazır: «Dədəm Qorqud» boyları sözlüyünün araşdırılması bu fikrin bütünlüklə yanlış olduğunu göstərir. Bu boyların dilini onun yazıları ilə qarşılaşdırsaq, sonuncuların sözlüyü daha «təmizdir». Boylarda isə kiçicik bir fars-ərəb sözcükləri qatı vardır. Görünür, bu sözcüklər Azəri türkcəsinə islamın birinci 300 ili boyunca keçmişdir. Ortaq türk-fars, türk-ərəb sözləri /əzizləmək, ədəblənmək və bu kimiləri/ sayılmazsa 136 fars, 350-yə yaxın ərəb sözü işlənmişdir. Dədə Qorqud boylarının sözlüyü 4530 söz tutur, deməli bu sözlüyün yalnız yüzdə üçü /3 faizi/ farscadan alınmadır. Azəri türkcəsinin XVI-XIX yüzil qaynaqlarında-Füzuli, Xətai, S.Ə.Şirvani «divan»larında isə sözlüyün yarıdan çoxu ərəb, fars sözləridir. (11)

Yeddinci bölüm bitir və növbə prof. Yaqub Mahmudova çatır: *Səkkizinci bölüm-Azərbaycan IX yüzilliyin ikinci yarısında-XIII yüzillliyn əvvəllərində.* Azərbaycan tarixinin hadisələrlə zəngin olan bir dövrü. Feodal dağınıqlığı. Bu yerlərdə hərbi-siyasi qüdrətli zəifləyən Ərəb xilafətinin çökməsi ilə bağlı ayrı-ayrı yerlərdə yaranan əmirliklər. Abbasilər xilafətinin süqutu yaxınlaşmaqdaydı. Təbriz, Mərənd, Miyanə, Aran, Şirvan, Beyləqan, Şəki, Sənariyə, Qəbələ, Dərbənd ayrı–ayrı nəsillər tərəfindən idarə olunurdu. Onlar ərəb mənşəli olsalar da, artıq yerli əhali ilə qaynayıb-qarışmışdılar.

Şirvanşahlar dövləti /VI-XVI/. Müstəqil dövlətlərdən biri.

Sacilər dövləti /879-941/. Banisi Əbu Sac Divdad. Xilafət döyüşündə xidmət edən məşhur türk sərkərdəsi. Zəncandan Dərbəndə qədər bütün Azərbaycan torpaqları sacilərin əlindəydi. Paytaxtı əvvəlcə Marağa, sonra isə Ərdəbil oldu.

Salarilər dövləti /941-981/. Onlar tezliklə Azərbaycanın şimal – qərb torpaqlarını və Şirvanşahlar dövlətini də özlərindən asılı etdilər. Dərbəndi ələ keçirdilər.

Rəvvadilər dövləti /981-1071/. O zaman Azərbaycanda oğuz türklərinin mövqeləri daha da möhkəmləndi, paytaxt Ərdəbildən Təbrizə keçdi.

Şəddadilər dövləti /951-1174/. Bu sülalə hakimləri Dəbildə /Dvin/ yaşayırdılar. Gəncəni ələ keçirib Azərbaycan Şəddadilər dövlətini yaratdılar. Şəddadilərin bir qolu Gəncə və Dəbil, ikinci qolu isə Ani torpaqlarında hökmfərma idi.

Diqqətinizdə oldumu Azərbaycan nə qədər böyümüşdü? IX-XI əsrlərdə ərazisində şirvanşahların, sacilərin, salariləri, rəvvadilərin, şəddadilərin hakimiyyət ocağı yaratdıqları Azərbaycan-əsasən oğuz boylarının məskunlaşdığı bir diyar!

Amma, qarşı tərəfdən rus bəlası gəlirdi. Yel kimi, tufan kimi. Bu «piratların» /ifadə V.Minorski və Y.Mahmudovundur/ Xəzərsahili vilayətlərə basqınları. Bir deyil, iki deyil, beş deyil. IX yüzilin sonlarından XI yüzilin birinci yarısı da daxil olmaqla vaxtaşırı hücumlar...

Sonra... Sonrasa Səlcuq oğuz türkləri və Azərbaycan. Böyük Səlcuq imperiyası /Orta Asiyadan Dərbəndə qədər/. Sultan Toğrul /1038-1063/, Alp Arslan /1063-1072/, Məlikşah /1072-1092/. Alp Arslan, demək olar ki, bütün Orta Asiya, İran, Güney Qafqaz, İraq, Suriya, Kiçik Asiya və Ərəbistan yarımadasının sahibləri oldular.

Azərbaycanın Böyük Səlcuq imperatorluğunun tərkibinə qatılması bütün türklüyün etno-siyasi dayaqlarından birinə çevrildi, Azərbaycanda türk xalqının yaranışı başa çatdı. Şirvanşahlar dövləti yenidən dirçəldi. Eldənizlər dövləti müstəqil Azərbaycan dövlətlərindən biri oldu. İqtisadi inkişaf sürətləndi, sənətkarlıq canlandı, ticarət çoxaldı, Bərdənin, Ərdəbilin, Dərbəndin, Marağanın, Urmiyanın, Təbrizin, Muğanın, Varsanın, Bakının əhəmiyyəti artdı, mədəniyyətin tərəqqisi daha da sürətləndi.

Prof. Yaqub Mahmudov da Dədəqorqudşünasdır. «Kitabi-Dədəm Qorqud»-Y.Mahmudovun sözü ilə desək, türklüyümüzün tərcümeyi-halında yaşayan real tariximiz! Şifahi xalq ədəbiyyatımızın tacı! Əvəzolunmaz tarixi qaynaq!!!

IX-XII əsrlər tariximizdə böyük mərhələ oldu və ədəbiyyatda daha güclü oyanış baş verdi. «Kitabi-Dədəm Qorqud»un müxtəlif boyları Azərbaycan oğuzlarının Dərbənddən Diyarbəkr hüdudlarına, Xəzər dənizindən Qara dənizədək geniş ərazidə yaşadığını təsdiqlədi, XII əsrədək Ömər Gəncəvi, Eynilqüzzat /yəni qazilərin gözü-Ş.F. və E.M./ Miyanəçi, Mücirəddin Beyləqani, Xətib Təbrizi kimi güclü qələm ustadları yetişdi. Bir görün Eynülqüzzat Miyanəçi necə gözəl bir rübai yazıb:

«Eşqində gərək hasil ola, o yoxdur,
Ümmidə gərək sahil ola, o yoxdur.
Səbr eylə,-deyirsən ki, -işin yaxşı olar,
Qəlb ola ona qalib ola, o yoxdur

Nəhayət «Vahid dilin yaranması». Vahid türk dilinin yaranması Azərbaycan türkcəsinin bütün ölkə ərazisində vahid ünsiyyət vasitəsinə çevrilməsi idi. Azərbaycan türkcəsinin ərəb və fars dillərində yaranan saray ədəbiyyatını sıxışdıraraq ədəbi dilə çevrilməsi dövrü başlanırdı.

Bütün bunlar «Səkkizinci bölüm»də Yaqub Mahmudovun fikirlərinin inikasıdır. Amma, qələm yenə dinc dayanmadı. Qələm öz işində oldu. Və Yaqub müəllim qələmə aldığı bölümün sonuncu cümləsini belə tamamladı: «Bu /yəni Azərbaycan türkcəsinin ədəbi dilə çevrilməsi-Ş,F. və E.M./ intibah dövrü tariximizin ən böyük uğurlarından biri idi. (12)

«Azərbaycan tarixi»nin yazılışı davam edir. Alov dilli uju ilə milli tariximizi yazmaqda olan yorulmaz qələm Yaqub Mahmudovun əlindən Süleyman Əliyarlının əlinə keçdi və «*Doqquzuncu bölüm*» yazıldı.

«Monqol basqınları çağı». Monqol yürüşləri və onlara qarşı mübarizə. Birinci yürüş /1221-1223/. İkinci yürüş /1231-1239/. Bu iki yürüş arasında, hələ bu azmış kimi, gürcü feodalları /1222/ və Xarəzmşah Məhəmmədin oğlu Cəlaləddin /1225-1231/ də Azərbaycana soxuldular.

Hülakü ulusunun yaranması /5-ci monqol ulusu/. Dinc əhalinin qırılması. Monqolların «örüş siyasəti»-gunəmuzd. Yerli xalqın monqol soyqırımı. Dövrün torpaq və vergi siyasəti. Divan torpaqları və incu. Mülk, iqta, vəqf, vergilər. Vergi toplama üsulu. Mükəlləfiyyətlər. Qazan xanın /1295-1304/ islahatları. Əsgəri iqta yarlığı. Şəhər təsərrüfatı. Oturaq əkinçilik. Suvarma. Dövlət xəzinəsinin qazancı. Elxani hökmranlığının sonu. Yeni köçkün axınları. Çobani feodallarının zülmü. Cəlair ağalığı /1336-1432/... və «Doqquzuncu bölüm»ün sonu.(13)

İndi «*Onuncu bölüm*». Qələm yenə Süleyman Əliyarlıdadır: Qurtuluş hərəkatı. Feodal dövlətləri. XIV yüzilin – XV yüzilin başlanğıjında xalq utopiyaları və *bidətçi* hərəkat /yenilik gətirmə, yenilik yaranma-Ş.F. və E.M./. Siyasi birlik meyli. Hürufilik. Dərviş, abdal, qələndər, dədə. Hürufiliyin haqq işi. Şirvanşah I İbrahim. Əlincəqala müdafiəsi. Ölkənin ictimmi-iqtisadi həyatı. Torpaq sahibliyi və onun mərkəzi hakimiyyətə təsiri. Əhməd Ağqoyunlu islahatı. Sabitliyə doğru çətin yol. Şirvan. Qaraqoyunlu və Ağqoyunlu dövlətləri. Teymurilərə qarşı xalq savaşı. Qaraqoyunlu ulusu. Təbriz uğrunda mübarizə. Qaraqoyunlu dövləti. Qaraqoyunlu-Şirvan münasibətləri. Teymurilərlə savaşın yeni səhifəsi. Ağqoyunlu dövləti. Səfəvi şeyxləri Ərdəbildə. Xarici siyasət. Dövlət quruluşu. Trabzon irsi üstündə çəkişmə. Venesiya, Vatikan və krallıqlar ilə bağlaşma. II Mehmet Fateh. Savaş. Venesiya ilə yeni anlaşma cəhdi. Moskva knyazlığı ilə əlaqələr. (14)

*On birinci bölüm* gəlir. Müəllifi Süleyman Əliyarlıdır. «XIII-XV yüzillərin mədəniyyəti». Elm /Bilik dünyamız tarixinə nəzər. Marağa rəsədxanası. Nəsirəddin Tusi bilik məktəbi. Darüş-şəfa. Fəlsəfi görüşlər. Mahmud Şəbüstəri. Şihabəddin Sührəvərdi. Şəms Təbrizi. Fəzlullah Nəimi. Təbiət və fəlsəfi biliklər şamının sönük işıltısı. Tarixi biliklər/. Bədii söz sənəti /Həsənoğlu.Qazi Bürhanəddin «Divan»ı. İmadəddin Nəsimi. Bədr Şİrvani. Şah Qasimi Ənvar. Cahanşah Həqiqi. Musiqi /Səfiəddin Urməvi. Əbdülqadir MArağai/. Tətbiqi sənətlər /Saxsı. Oymalar. Qabartmalar. Bədii metal. Toxuculuq. Xalçaçılıq/. Memarlıq /Şəhərsalma işi. Qorunma tikililəri. Məqbərələr, türbələr, camelər, məscidlər. Mülki tikililər/. (15)

On birinci bölüm də bitdi. Süleyman müəllim hələlik öz sözünü dedi. İndi «*On ikinci bölüm*» gəlir: «Səfəvi imperatorluğu /XVI-XVII yüzillər/». Bu bölümdə 4 yarımbölüm var: 1+3. Birinci yarımbölüm yenə S.Əliyarlının, sonrakı 3 yarımbölüm isə dos. Zabil Bayramlınındır.

*Birinci yarımbölümün yarımbaşlıqlarına* nəzər yetirək: Şeyx Heydər oğullarının gizlədilməsi. Kiçik İsmayılın ilk siyasi addımı. Fərrux Yəsara qarşı yürüş. Bakının tutulması. «İstəyiniz nədir-Azərbaycan, yoxsa Gülüstan qalası?». Qızılbaşlığın baş ideoloqu qızılbaş işini necə dəyərləndirirdi? Qızılbaş hərəkatına dirək və arxa olan zümrələr.

Bütün bunlar özündə siyasi hakimiyyətimizin Səfəvi dövrünün müqəddiməsini əks etdirir. Sonrakı yarımbölümlər isə Z.Bayramlınındır.

Ağqoyunlu Əlvənd Mirzə ilə savaşdan sonra I Şah İsmayılın yaratdığı Səfəvi imperatorluğuna İraqi-Ərəb və İraqi-Əcəm, Həmədan, Kirman, Şiraz, İsfahan və başqa yaxın və uzaq torpaqlar daxil idi. Şah İsmayıl Çaldıran cəngində /23 avqust 1514/ osmanlılar tərəfindən məğlub edilsə də, yaratdığı imperatorluğunu qoruyub saxlaya bildi. Onun oğlu Şah Təhmasib dövründə isə bu imperatorluğun ərazisi nəinki azaldı, oraya hətta Şirvan və Şəki də əlavə olundu. II Şah İsmayıl və Şah Məhəmməd Xudabəndənin hakimiyyətləri dövründə vəziyyət gərginləşməyə başladı, osmanlılarla münasibətləri yaxışlaşdırmaq istəyən II Şah İsmayıl öldürüldü, Şah Məhəmməd Xudabəndə isə Təbrizi və başqa yerlərimizi əldən verdi. (16) Təbrizin tutulması Azərbaycanın əldən çıxması deməkdi. 1587-ci ildə taxta çıxan gənc Şah Abbasın başqa çıxış yolu qalmamışdı, çünki Səfəvi imperatorluğu osmanlılar və özbəklər tərəfindən tamamilə tutula bilərdi.

Buna görə də Şah Abbasın təklifi ilə müharibə dayandırıldı və İstanbulda osmanlılarla sülh sazişi imzalandı /22 mart 1590/. Bu barışıq üzrə Səfəvi dövləti Azərbaycanda, Gürcüstanda, Çüxursəddə və Dağıstanda osmanlı hakimiyyətini tanımalı oldu.

Şah Abbasın islahatları səfəviləri hərbi cəhətcə qüvvətiləndirdi.1603-1612-ci illərdəki səfəvi-osmanlı müharibəsi səfəvilərin xeyrinə nəticələndi və tərəflər arasında 1612-ci ildə 1555-ci il Amasya barışığı əsasında müqavilə imzalandı, imperatorluğun qərb və şimal-qərb dövlət sərhədləri əvvəlki vəziyyətə qaytarıldı.

Amma, buna baxmayaraq osmanlı-səfəvi savaşları ara-sıra yenə davam etməkdəydi. 1639-cu ildə, Kürdüstanın Zəhab adlı yerində tərəflərarası bağlaşma /17 may/ baş verdi. Bu sülh müqaviləsi uzunömürlü oldu və XVIII əsrin ilk rübünün sonunadək qüvvədə qaldı. (17)

Barəsində danışdığımız tarix kitabının on ikinci bölümü bitdi, (18) *on üçüncü bölüm* isə prof. Seyidağa Onullahi tərəfindən yazılmışdır: «XVI-XVII əsrlərdə Azərbaycan mədəniyyəti». Bu fəslə aid olan məsələlərdə ədəbi türkcənin, ədəbiyyatın yüksəlişi, aşıq sənəti dastan ədəbiyyatı, maarif və məktəb, elm, təbabət, incəsənət, memarlıq, musiqi, xəttatlıq, həmçinin Azərbaycan türkcəsinin saray və diplomatiya dilinə çevrilməsi kimi mühüm mövzular işıqlandırılmışdır. S.Onullahi bölümü bu sözlərlə yekunlaşdırır: «XVI-XVII yüzillərdə Azərbaycan mədəniyyəti dolğun inkişaf yolu keçmişdir. Bu mədəniyyət Səfəvi imperatorluğunda yaşayan digər xalqların mənəvi dünyası ilə ilgəkli olmuş, öz növbəsində onların mədəni inkişafında dəyərli rol oynamışdır». (19)

*On dördüncü bölüm*: «Azərbaycanın beynəlxalq çəkişmə meydanına çevrilməsi». Yarımbölümlər və yarımbaşlıqlavr: Şirvan bölgəsinin etno-coğrafi durumuna baxış /Tarixi qaynaqlar Şirvan haqqında. Ölkənin iç durumu. Mərkəzi hakimiyyətə qarşı çıxış və üsyanlar/; Xəzəryanı vilayətlər və çarlıq Rusiyası /Ruslar nədən Xəzər üzərinə qoşdular? İrana böyük elçilik göndərilməsi. Hacı Davudlun Rusiyaya arxalanmaq istəməsi. Hacı Davud Şamaxıda/; I Pyotrun Xəzəryanı bölgələrə yürüşü /I Pyotrun manifesti. Xəzəryanı bölgələrin tutulması. Bakı qalasının müdafiəsi. Rusiya yürüşü Səfəvi dövlətinin gözü ilə. Türkiyə-Rusiya diplomatiya çatışmaları. İstanbul bağlaşması. Türkiyənin Güney Azərbaycanı tutması. Rusiyanın tutduğu torpaqların gerçək durumu/; Azərbaycan üstündə dövlətlərarası savaşlar /Çəkişmələrin güclənməsi. Azərbaycan uğrunda savaşın qızışması. 1732-ci il Rəşt bağlaşması. Nadlirin yeni savaşı. Şamaxı və Gəncə üzərinə yürüşlər. Türk-islam dünyasında dərinləşən ayrılığa Nadirin son qoymaq istəməsi/; Azərbaycanda xalq azadlıq hərəkatı. Şəki xanlığının yaranması /Şah seçkisi xalqa nə verdi? 1738-ci il Çar üsyanı. Nadirin Azərbaycana yeni yürüşü. I Sam Mirzə üsyanı. II Sam Mirzə üsyanı. Üsyanın tarixdə özümlü yeri. Səfi Mirzənin üsyan oyunu. Sonuncu dalğa-Şəki xanlığının yaranması. «Gələsən-Görəsən» müdafiəsi/. Bütün bu mövzular bu kitabda Süleyman Əliyarlı tərəfindən qələmə alınmışdır. (20)

Növbəti *on beşinci bölümü* yazmaqdan ötrü qələm Kərim Şükürlünün əlinə keçdi. Tarix elmləri doktoru Kərim Şükürlü: «Azərbaycan xanlıqları. Dövlət müstəqilliyi uğrunda mübarizə». Mühüm mövzudur. Axı, söhbət müstəqillikdən gedir. K.Şükürlü burada bu mövzuları işıqlandırıb: *Xanlıqların yaranması* /Nadir şahın qətlindən sonra imperiyanın dağılması. Güney Azərbaycan xanlıqları. Quzey Azərbaycan xanlıqları/; *Azərbaycanın birləşdirilməsi uğrunda mübarizə* /Ara çəkişmələrindən mərkəzləşməyə doğru. Güneydə mərkəzləşdirmə uğrunda mübarizə. İranda ali hakimiyyət uğrunda mübarizə. Qarabağ xanlığının asılı vəziyyətə salınması. Kərim xan Zəndin Urmiya xanlığını tutması. Şiraz «qonaqları». Güney Azərbaycan XVIII yüzilin 60-80-cı illərində. Quzey Azərbaycan xanlıqları. Şəki xanlığı. «Bayat savaşı». «Qızıl qaya xəyanəti». «Nə məsləhət görürsünüz görün, ancaq Kürü keçmək içində olsun». Qarabağ xanlığının güclənməsi. Bayat qalası. Pənah xanın tutulması. Şahbulağın tikilməsi. Məliklərin bö-

lüşdürürcülük istəyi və onların onların xanlığa tabe edilməsi. Qarabağ xanlığı sərhədlərinin genişləndirilməsi. Şuşa. Qarabağ xanlığına basqınlar. Qarabağ xanlığı 60-80-cı illərdə. Separatçı məliklərlə mübarizə. Quzey-Gündoğar Azərbaycanın birləşdirilməsi. Qubalı Fətəli xan. «Nikah diplomatiyası». Şamaxı xanlığı üstündə savaş. Şəki xanlığı ilə ittifaqın pozulması. Muğanın birləşdirilməsi. 1769-cu il Şamaxı qiyamı. Azərbaycanın birləşdirilməsi uğrunda mübarizənin həlledici dönümü. Dərbənd mühasirəsinin sonu, itirilmiş torpaqların geri qaytarılması. Birləşdirmə siyasətinin davam etdirilməsi. Fətəli xanın ölümü/; *Azərbaycan xanlıqlarının xarici siyasəti* /Xarici siyasətin əsas istiqamətləri. İranla münasibətlər. Osmanlı imperatorluğu ilə münasibətlər. Rusiya ilə münasibətlər. Fətəli xanın elçisi Moskvada. 1783-cü il Georgiyevsk müqaviləsi və Azərbaycan. Azərbaycan-Gürcüstan münasibətləri/; *Azərbaycanın birləşdirilməsinin uğursuzluğu. Güney Azərbaycan torpaqları İran tabeliyində* /Ölkənin siyasi durumu. Qacarların İranda hakimiyyətə gəlməsi. Güney Azərbaycan torpaqlarının Qacarın hakimiyyəti altına düşməsi. Quzey Azərbaycan torpaqları XVIII yüzilin 90-cı illərində. Xanlıqların xarici siyasət xətti. İran və Rusiyanın Quzey Azərbaycana müdaxilə üçün diplomatik hazırlığı. Qacarın Quzey Azərbaycana hücumu. Şuşanın 33 günlük müdafiəsi. Qacarın Tiflisi tutması. Rusiyanın siyasi-iqtisadi tədbirləri. Ağa Məhəmməd şahın ikinci yürüşü/; *Xanlıqların iqtisadi vəziyyəti. Sosial-silki quruluş və idarəçilik.* İqtisadi vəziyyət. Sosial-silki quruluş. İdarəçilik/; *XVIII yüzildə Azərbaycan mədəniyyəti* /Mədəniyyətin inkişaf zəmini. Maarif, elm. əədəbi dil və ədəbiyyat. Azərbaycan kitabı. İncəsənət. (21)

Allah qələmini iti eləsin Kərim Şükürlünün. Azərbaycan xanları və xanlıqları haqqında nə bilirdisə, yazdı. Bilmədiyini yazacaqlarmı? Cavabı mübhəm sualdır.

Keçək *on altıncı bölümün* təsvirinə. Bu bölümdə S.Əliyarlı və K.Şükürlü birləşib. Kaş ki, Azərbaycan xanları da birləşə biləydilər. Birləşsəydilər, bir çox çətin məsələlərin həlli asanlaşardı, Azərbaycan torpaqları ayrılmazdı və nəhayət, işğal altına düşməzdi...

Bu müştərək yazılan bölüm «Rusiyanın quzey xanlıqları işğal etməsi. Xanlıq dövrünün sonu» adlanır. Əlbəttə, hər əvvəlin bir sonu var. Müəlliflər bu bölümdə Ağa Məhəmməd şah Qacarın öldürülməsindən sonra baş verən əlaqədar hadisələrə, ara hadisələrinin qızışmasına, sosial-iqtisadi duruma, beynəlxalq münasibətlər durumuna, Rusiya-İran münasibətlərinə, Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsinə, 1802-ci il Georgiyevsk müqaviləsinə, Rusiya işğalının başlanmasına, Balakən-Car torpağının işğalına, Gəncə hadisələrinə, Sisianovun Cavad xana məktublarına, Cavad xanın cavabına, məktubbaz generalın Gəncə ermənilərinə məktubuna, ultimatumbaz generalın Gəncə xanına yazdığı daha dörd məktub-ultimatumuna, Gəncə döyüşçülərinin igidliyinə, Gəncə qətli-amına, 1804-1813-cü illər Rusiya-İran savaşına və Güney Azərbaycan xanlıqları uğrunda mübarizənin yenim dönümünə, Qarabağ xanlığının Rusiyaya tabe edilməsinə, Kürəkçay anlaşmasına, Şəki xanlığının Rusiya tabeliyinə keçəməsinə, Şirvan xanlığının tabe edilməsinə, Bakı yürüşü və Sisianovun qətlinə, İbrahim xanın öldürülməsinə, Mehdiqulu xanın «hökumətə» gətirilməsinə, Bakı və Quba xanlıqlarının tutulmasına, İngiltərə-İran yaxınlaşmasına, nəhayət Gülüstan müqaviləsinə, xanlıq dövrünün sonuna, 1826-1828-ci illər Rusiya-İran savaşından başlayaraq Türkmənçay müqaviləsinə və başqa əlaqədar hadisələrə ətraflı nəzər yetirmişlər. Bu bölümü qiymətli edənsə, orada Gülüstan və Türkmənçay müqavilələrinin tam mətnlərinin verilməsidir. (22)

*On yeddinci bölüm.* Prof. Süleyman Əliyarlı ilə dos. Mehman Abdullayevin işbirliyi. Bölümün adı: *«Çarlıq Rusiyasının torpaq siyasəti. Müstəmləkə zülmünə qarşı üsyanlar».* Deməк, ictimai-siyasi məsələlər. Rusiyanın gözü doymaz torpaqdan. Rusiya öz müstəmləkələrini əldən vermək istəməz. Çünki, Rusiya savaşa bilir, Rusiya döyüşə bilir, əliuzunluq edə bilir /Məsələn, Yuri Dolqorukiyin timsalında –Ş.F. və E.M./. Və Ru-

Tarix və onun problemləri, №1-2 2009
siya özünə haqq qazandırır ki, işğal etdiyi bütün torpaqlarda həm öz, həm də özgə adamların qanını axıdıb. Qəribə məntiqdir!...

Adı çəkilən bölüm Quzey Azərbaycanın Rusiya tərəfindən işğalı ərəfəsində və işğaldan sonrakı dövrdə ölkədə aqrar quruluşun səciyyəsindən, torpaqların istifadə qaydalarından, silki quruluşdan, rusların torpaq xüsusunda verdiklər buyruq və fərmanlardan, torpaq hüquqlarının tənzimləmə hüquqlarından və s. məsələlərdən bəhs edir, həmçinin Azərbaycanda müstəmləkə və feodal zülmünün bir-biri ilə qovuşmasından da danışır. Sonra, ayrı-ayrı yerlərdə müstəmləkə zülmünə qarşı çıxış və üsyanlar. Car-Balakən və Talışda qalxan üsyanların yatırılması. 1837-ci il Quba üsyanı. Bu üsyandan sonra Şəki əyalətində çıxış. Çarizm və yerli feodallar /20-ci illərin sonu-1846-cı il/. (23)

*On səkkizinci bölüm* də müştərək yazılıb: *«Güney Azərbaycan Türkmənçay bağlaşmasından sonra»*. Müəliflər prof. Süleyman Əliyarlı və prof. Şövkət xanım Tağızadədir. Bölümün müştərək müəlifləri varsa da, onlar bir-birlərinin işlərinə qarışmayıblar. Belə ki, *birinci yarımbölüm* S.Əliyarlının, sonrakı *üç yarımbölümsə* Ş.Tağızadənindir.

S.Əliyarlının hissəsində Rusiya və İran arasında hüdud bölüşməsindən, təbəə alış verişindən, Türkmənçay bağlaşmasının 15-ci maddəsindən, ermənilərin «o taydan» /İrandan-Ş.F. və E.M./ «bu taya» köçürülmələrindən və əksinə, kəngərlilərin «bu taydan» «o taya» köçürülmələrindən və başqa əlaqəli məsələlərdən söhbət gedir. (24)

Ş.Tağızadəni isə iqtisadi-durum, kənd təsərrüfatı, sənətkarlıq, daxili və xarici siyasət, habelə ictimai-siyasi quruluş /tiyul, ilat, mülk, vəqf, xırdamalik, vergilər, şəhərlərdə ictimai münasibətlər, inzibati-siyasi quruluş, əyalətdə və yerlərdə idarəçilik və Azərbaycanda babilik və babilər hərəkatı maraqlındırıb. (25)

Kitabın *on doqquzuncu bölümü* yenə Süleyman Əliyarlınındır: *«İqtisadi irəliləyiş. Kapitalist istehsalının yaranması və inkişafı»*. Müəllif iqtisadi mənimsəmə məsələlərinə iki baxışdan, 1821-ci ilin ticarət qanunundan /imtiyazlı gömrük/, «Rusiya ticarət şirkəti» layihəsindən söhbət açdıqdan sonra *«Kənd təsərrüfatı» yarımbölümünü* yazır və burada kənd təsərrüfatının müxtəlif sahələrindən /taxılçılıq, bağçılıq, üzümçülük, heyvandarlıq, baramaçılıq, texniki bitkilər/ bəhs edərək *üçüncü yarımbaşlığı* önə çıxarır: *«Yeyinti istehsalı və sənət işi. Kapitalist istehsalının yaranması»*. Kapitalist istehsalına isə bunlar daxil idi: Yeyinti istehsalı, sənətkarlıq, manufaktura. Və bunlar kapitalist istehsalını yaradırdı. Amma S.Əliyarlı yazır: «Ancaq, kapitalist istehsalının yaranışı buraya yalnız dışarıdan gətirilməmişdir. Bu yaranışın ilkin cücərtiləri Azərbaycan, o sıradan Bakı iqtisadının öz bətnindən doğulmuş, XVIII yüzilin sonu-XIX yüzilin başlanğıcından özünü göstərməyə başlamışdır. Buna görə də Azərbaycan iqtisadi və kapitalist istehsalı arasında heç bir bağlılıq görməmək, «Bakının kapitalist iqtisadiyyatı Azərbaycanın özünün ictimai-iqtisadi inkişafı ilə hazırlanmamışdı» yazmaq tarixi baxımdan yanlışdır. (26)

Nəhayət sonuncu *iyirminci bölüm*: *«XIX əsr Azərbaycan mədəniyyəti»*. Müəllifi tarix elmələri doktoru Vilayüət Muxtaroğludursa da, bu bölümdəki «Azərbaycan türkcəsi dövlətlər və millətlərarası ünsiyyət dili kimi», «Siyasi sarsıntılar və ədəbiyyat», «Gəncə faciəsi söz sənətində», Əbdürrəhman ağa Dilbazoğlunun müxəmməsi» başlıqlı hissələri elə Süleyman Əliyarlının özü yazmışdır.

İyirminci bölümdə XIX əsrin 70-ci illərinə qədərki məktəb və mədrəsələr, müsəlman məktəbləri, qadın təhsili, orta məktəblər, dərsliklər, Azərbaycan türkcəsinin dövlətlər və millətlərarası ünsiyyət dili olması, ədəbiyyatın yeni durumu, siyasi sarsıntılar və onların ədəbiyyatda inikası, Gəncə savaşının poetik işıqlandırılması, Firidun bəy Köçərlinin təbirincə desək «millət bahadırlarından» biri olan Əbdürrəhman ağa adlı şairin müxəmməsi, həmçinin mövcud başqa ədəbi janrlar, elmlərə ümumi baxış, fəlsəfə, mətbuat və nəşriyyat, kitab çapı, kitabxanalar, incəsənət məsələləri, memarlıq və tətbiqi

sənətlər tədqiqat obyekti olmuşdur. Son bölümə nəticə olaraq yazılır: «XIX əsrin 70-ci illərinə qədərki Azərbaycan mədəniyyətinin keçdiyi yol göstərir ki, ölkənin siyasi həyatında baş verən köklü dəyişikliklər, Azərbaycanın dünyanın mədəni, iqtisadi əlaqələr sisteminə cəlb olunması milli mədəniyyəti özünün çoxəsrlik məzmun və ənənələrindən uzaqlaşdırmamış, yeni əsaslar üzərində yüksəlməsinə imkan yaratmışdı». (27)

Beləliklə, böyük bir kitab və ona tərəfimizdən yazılan kiçik bir məqalə. Müəllimlərimizin yazdıqları bölümlərin hamısı elmilik baxımından yüksək səviyyəli tədqiqat əsərləridir. Arzumuzdur ki, bu tarix kitabımız tamamlanmamış qalmasın və təkcə 1870-ci ilə qədərki tariximizi deyil, qədim dövrlərdən bu günlərədək baş vermiş bütün tarixi hadisə və məlumatları əks etdirsin.

## *ƏDƏBİYYAT*

1.A.Bakıxanov. Gülüstani-İrəm, Bakı, 1951, s.10. /Fars dilindən tərcümə edəni M.Əsgərli, redaktoru Ə.Ələsgərzadədir/.
2.История Азербайджана /С Древнейших времен до 70-х гг. XIX в./, Баку, 2338, с. 3. /Редактор Сулейман Алиярлы, профессор, Заслуженный деятель науки/.
3.Yenə orada, s. 8-10.
4.Yenə orada, s. 10-34.
5.Yenə orada, s.35-52.
6. Yenə orada, s. 53-75.
7. Yenə orada, s.90.
8. Yenə orada, s. 76-108.
9. Yenə orada, s.129-128.
10. Yenə orada, s. 129-155.
11. Yenə orada, s. 156-205.
12. Yenə orada, s. 206-246.
13. Yenə orada, s. 247-273.
14. Yenə orada, s. 274-308.
15. Yenə orada, s. 309-339.
16. Октай Эфендийев. Азербайджанское государство Сефевидов в XVI веке, Баку, 1981, с. 176-190 /Редактор-академик А.А.Ализаде/.
17. А.А.Рахмани. Азербайджан в конце XVI и XVII веке, Баку, 1981, с. 85. Редактор А.П.Нолвосельцев.
18. История Азербайджана…., с. 340-401.
19. Yenə orada, s. 402-436.
20. Yenə orada, s. 437-485.
21. Yenə orada, s.486-543.
22. Yenə orada, s.544-587.
23. Yenə orada, s. 588-632.
24. Yenə orada, s. 633-644.
25. Yenə orada, s. 645-662.
26. Yenə orada, s. 663-682.
27. Yenə orada, s. 683-733.

**ШАХИН ФАРЗАЛИЕВ**
***д.и.н, профессор,***
**ЭЛЬМИРА МУРАДАЛИЕВА**
***д.и.н., профессор***

# КНИГА, ЗАСТАВИВШАЯ ЗАГОВАРИТЬ МОЛЧАЛИВОГО ПОВЕСТВОВАТЕЛЯ – ИСТОРИЮ

История - это молчаливый повествователь, которого необходимо заставить раскрыть свои тайны. История является живым свидетелем всех событий, происходивших в мире. Со временем, раскрыв свои тайны, она проливает свет на историческую действительность. Для этого надо проявить большую инициативу и обладать широким научным кругозором. В этой связи особо следует выделить изданный повторно уже на русском языке под редакцией д.и.н., проф. С.Алиярлы фундаментальный труд «История Азербайджана», подготовленный такими видными учеными Бакинского Государственного Университета как чл.-корр. НАНА Ягуба Махмудова, чл.-корр. НАНА Ильяса Бабаева, д.и.н, проф., заслуженного деятеля науки Сулеймана Алиярлы, д.и.н., проф. Шовкет ханым Тагизаде, д.и.н., проф. Сеидага Онуллахи, д.и.н. Керима Шукюрлю, д.ф.н. Вилаята Мухтар оглы, доцента Фармана Махмудова, доцента Забила Байрамова, доцента Мехмана Абдуллаева. Написанная на основе обширного количества фактического материала данная работа охватывает историю Азербайджана с древних времен до 1870 года.

**SHAHIN FARZALIYEV**
***Dr.of History, prof.***
**ELMIRA MURADALIYEVA**
***Dr.of History, prof.***

# THE BOOK WHICH MAKES HISTORY – THE SILENT STORY-TELLER TO SPEAK

History is the silent storyteller. It is necessary to make it to reveal its secrets. The history is alive eye witness of all events occured in the world. From time to time having revealed the secrets, it throws light on the historical truths. To reach this goal is necessary to display the greater initiative and to possess a wide scientific outlook. In this connection it should be noted in particular, having been published already in Russian under edition of Dr. of history, prof.S. Aliyarly A fundamental work-"History of Azerbaijan" prepared by such prominent scientists of the Baku State University as corresponding member of ANAS Yagub Mahmudov,Dr. of history, prof. Ilyas Babayev, Dr. of history, prof. honored scientist Suleiman Aliyarly, Dr. of history, prof. Shovkat xanim Taghizadeh, Dr. of history, prof. Seidagha Onullahi, Dr. of history Karim Shukurlu, Dr. of Filology Vilayat Mukhtar oghlu, senior lecturer Farman Mahmudov, senior lecturer Zabil Bayramov, senior lecturer Mehman Abdullaev. Written on the basis of extensive quantity actual materials the given work covers history of Azerbaijan since ancient times till 1870.